**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN BALTİKYANI ÖLKƏLƏRLƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01 – "Ümumi iqtisadiyyat"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Kamran Rauf oğlu Nəbizadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Biznes Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Fuad Əlinağı oğlu Qənbərov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru
**Müslümat Allahverdi qızı Allahverdiyeva**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Tariyel Müsəllim oğlu Qurbanov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Leyla Qabil qızı Xasiyeva**

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru
**Elşən Əli oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə iki və çoxtərəfli xarici iqtisadi əməkdaşlığı genişləndirmədən, ölkə iqtisadiyyatının qlobal iqtisadiyyata səmərəli inteqrasiyasına nail olmadan, davamlı iqtisadi inkişafı təmin etmək mümkün deyil. Yalnız bu halda qlobal iqtisadiyyata dərin inteqrasiya, milli iqtisadiyyatın səmərəli strukturunun formalaşması, müasir texnologiya və idarəçilik təcrübəsinin mənimsənilməsi, xüsusilə 4-cü sənaye inqilabının çağırışlarına adaptasiya üçün geniş imkanlar yarana bilər. Digər tərəfdən, belə ölkələr beynəlxalq əmək bölgüsündə malik olduğu müqayisəli üstünlükləri səmərəli reallaşdırmaq və iqtisadi təhlükəsizliyi təmin etmək üçün əlverişli şərait əldə etmiş olur.

Dünyada baş verən qlobal iqtisadi proseslərlə əlaqədar Azərbaycan iqtisadiyyatında da gedən institusional dəyişikliklər ölkəmizin beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmasına güclü təkan verməkdədir. Ölkəmizdə aparılan iqtisadi islahatlar nəticəsində milli iqtisadiyyatımız qlobal sistemə daxil olmuşdur. Bu baxımdan 2030-cu ilədək qlobal məqsəd və hədəflər üzrə ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən milli prioritetlər və onlara dair göstəricilərin müəyyənləşdirilməsi istiqamətində Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə 2016-cı ilin dekabrında təsdiq olunmuş Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi, 2021-ci ilin fevralında təsdiq edilmiş "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər hazırda uğurla reallaşdırılır. Hər iki inkişaf istiqaməti xarici iqtisadi amillər nəzərə alınmaqla, Azərbaycanın xarici ölkələrlə, o cümlədən Baltikyanı ölkələrlə çoxtərəfli əlaqələrin spesifik xüsusiyyətlərinə uğun olaraq qlobal iqtisadiyyata ölkəmizin inteqrasiya olunmasında konseptual dəyişiklikləri üzə çıxarır.

Dünya iqtisadiyyatında ölkələrarası beynəlxalq əlaqələrin iqtisadi inteqrasiya çərçivəsinə salınması öz növbəsində inteqrasiyaya qoşulan ölkələr arasında texnaloji yeniliklərin mübadiləsinə gətirib çıxarır. Son zamanlar Avropaya güclü inteqrasiya etməkdə olan Baltikyanı ölkələr Avropanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrindən heç də geri qalmırlar. Bu ölkələr qlobal iqtisadi

oyunçuya çevrilməklə, bütün Avropanın diqqətini özünə cəlb edə bilmişdir. Bu hal Azərbaycan üçün də xarakterik olduğundan tədqiqatı aparılan dissertasiyanın mövzusu çox aktualdır və təcrübi əhəmiyyət kəsb edir.

Azərbaycan Cənubi Qafqaz regionu iqtisadiyyatının 70%-nə malik olduğu üçün region ölkələri ilə müqayisədə inkişaf etmiş iqtisadiyyatlı ölkə sayılır. Ölkəmizin Avropa ilə Asiyanı birləşdirən "Böyük İpək" yolunun üzərində yerləşməsi milli iqtisadiyyatımızın dirçəlişində və Avropa ilə Asiya arasında körpü rolunu oynamasında mühüm iqtisadi əhəmiyyət daşıyır. Bu baxımdan, Azərbaycanın eyni kontinentdə yerləşdiyi, ərazisi və nüfuz dairəsinə görə dünyanın əsas iqtisadi və siyasi güc mərkəzlərindən sayılan Avropa İttifaqı (Aİ), o cümlədən həmin birlikdə sürətli iqtisadi inkişafa malik olan Baltikyanı ölkələr ilə iqtisadi əməkdaşlığını genişləndirməsi və bu məkana inteqrasiya olunması obyektiv zərurətə çevrilmişdir.

Ölkəmizlə eyni ildə müstəqilliyə malik olan Baltikyanı ölkələrin təbii sərvətlərinin az olmasına baxmayaraq, Aİ-nın inkişaf etmiş ölkələrinə qısa zamanda inteqrasiya olunması onların beynəlxalq arenada tanınmasını sürətləndirmişdir. Buna görə də, Azərbaycanla Avropa İttifaqı ölkələrilə, xüsusilə də inkişaf etmiş Baltikyanı ölkələr arasında əməkdaşlığın inkişafında, eləcə də onların iqtisadi inkişaf siyasətinin araşdırılaraq təhlil olunmasına və nəticə çıxarılmasına ehtiyac vardır.

Bütün bunlar Baltikyanı ölkələr ilə iqtisadi əlaqələrin inkişaf xüsusiyyətlərinin araşdırılması, mövcud vəziyyətin təhlili və qiymətləndirilməsi istiqamətində ticarət-iqtisadi əlaqələrin inkişaf potensialını, eləcə də tədqiqatın nəzəri-metodoloji və praktiki əhəmiyyətini aktual edir.

Problemin öyrənilmə səviyyəsi ölkələrarası iqtisadi əlaqələrin öyrənilməsi istiqamətində tədqiqatçılar üçün maraq kəsb edir. Təsadüfi deyildir ki, klassik iqtisad elminin nümayəndələrindən olan A.Smit və D.Rikardo ölkələrarası ticarət sahəsində xüsusi nəzəriyyələr işləyib hazırlamış, sonrakı dövrlərdə isə Hekscher, Ohlin, Porter, Pozner, Mil, Vernon, Hobson, Keynes və Kruqman bu konsepsiyaları daha da təkmilləşdirmişlər.

Ölkələr arasında iqtisadi əlaqələrin inkişafının nəzəri və praktiki məsələləri və bunun timsalında xüsusi yer alan postsovet ölkələr kimi Latviya, Litva və Estoniya qlobal iqtisadiyyatda ölkələrarası iqtisadi əlaqələrin inkişaf perspektivlərinin öyrənilməsi xarici alimlərin tədqiqat mövzusu olmuşdur. Belə ki, qlobal iqtisadiyyata inteqrasiya məsələlərinə G.Valters, G.Davulis, R.Ginevičius, K.Balodis, D.Lieven, F.Fasani, R.Skidelsky, J.Priewe, A.Smit, D.Rikardo, V.Leontyev, M.Pozner və s. kimi alimlərin əsərlərində rast gəlmək olar. Müasir tədqiqatçılardan A.Šimelytė, J.Stiglitz, M.Porter, P.Samuelson, R.Prebiş, R.Vernon, S.Xavier, J.Markusen və digərlərinin əsərləri diqqəti cəlb edir.

Azərbaycanın müxtəlif ölkələrlə xarici iqtisadi münasibətlərinin təkmilləşdirilməsi istiqamətləri, iqtisadi əlaqələrin ayrı-ayrı aspektləri Azərbaycan alimlərindən Z.Ə.Səmədzadə, A.Ş.Şəkərəliyev, G.Ə.Gənciyev, F.Ə.Qənbərov, R.R.Quliyev, İ.A.Kərimli, M.Y.Quliyev, V.H.Abbasov, A.A.Ələsgərov, D.Ə.Vəliyev, T.A.Yadigarov və digərlərinin tədqiqatlarında araşdırılmışdır.

Lakin qeyd etmək lazımdır ki, Baltikyanı ölkələrlə Azərbaycan arasında iqtisadi əlaqələri müasir tələblər səviyyəsində çoxtərəfli xarici iqtisadi əlaqələr müstəvisində geniş araşdırılan tədqiqatlara çox az rast gəlinir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının Baltikyanı ölkələr arasında ticarət-iqtisadi əlaqələrin reallaşmasını həyata keçirən müəssisə və təşkilatlardır.

Tədqiqatın predmeti isə Azərbaycan Respublikası ilə Baltikyanı ölkələr arasında ticarət əlaqələrindən yaranan iqtisadi münasibətlərdirin qanunauyğunluqları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanla Baltikyanı ölkələr arasında iki və çoxtərəfli ticarət imkanlarının aşkar edilməsi və Avropa bazarlarında uğur qazanmış baltik şirkətlərinin Azərbaycanla ticarət əlaqələrinin perspektivlərinin müəyyənləşdirilməsidir.

Məqsədlərə çatmaq üçün dissertasiyada aşağıdakı vəzifələr qeyd edilmişdir:

- qloballaşma şəraitində kiçik iqtisadiyyata malik ölkələrin xarici ticarət siyasətinin nəzəri əsaslarının və xüsusiyyətlərinin araşdırılması;
- qloballaşan iqtisadi münasibətlər sistemində Baltikyanı ölkələrin iqtisadiyyatlarının müasir vəziyyətinin araşdırılması;
- Azərbaycanla Baltikyanı ölkələrin iqtisadi əlaqələrinin təhlili və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;
- ölkələrarası elmi-texniki əməkdaşlığın artırılması istiqamətində qarşılıqlı investsiya imkanlarının qiymətləndirilməsi;
- Baltikyanı ölkələrin inkişaf strategiyalarının Azərbaycanda tətbiq olunması imkanlarının qiymətləndirilməsi;
- son illərdə regional münaqişələr zamanı Azərbaycan və Baltikyanı ölkələr arasında ticarət əlaqələrinin potensial istiqamətlərinin reallaşdırılması imkanlarının artırılması.

**Tədqiqat metodları**: Tədqiqat prosesində elmi metodologiyanın üsullarından – təhlil-sintez, statistik ümumiləşmədən, sistemli və praktiki yanaşmalardan, konseptual dəlillərdən, analtik müşahidə, sinergetik yanaşmalardan, həmçinin ekonometrik hesablamalardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- kiçik iqtisadiyyata malik ölkələrin xarici ticarət əlaqələrində iştirak meyarları nəzəri cəhətdən araşdırılaraq müəyyən olunur ki, Azərbaycan və Baltikyanı ölkələrin xarici ticarət siyasətinin oxşar və fərqli cəhətləri vardır;
- Müasir beynəlxalq iqtisadi münasibətlər şəraitində Baltikyanı ölkələrin idxal və ixracının potensial imkanlarının reallaşdırılmasında Azərbaycanın alternativ tərəf ola bilməsi reallığı mümkündür;
- Baltikyanı ölkələrin xarici ticarət əlaqələrinin təhlili və qiymətləndirilməsi göstərmişdir ki, Azərbaycan və Baltikyanı ölkələr arasında müəyyən mal qrupları və qrupdaxili mal növlərinin potensial idxal-ixrac imkanları çoxdur;
- Baltikyanı ölkələrlə ticarət əlaqələrinin genişləndirilməsi Azərbaycanın qlobal dəyər zəncirində payının yüksəlməsinin faydaları daha da çoxala bilər;

- Baltikyanı ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın potensial imkanları yüksəkdir;
- Azərbaycanla Baltikyanı ölkələr arasında xarici iqtisadi əlaqələrinin mövcud vəziyyətinin təhlili və aparılan qiymətləndirmə bir daha göstərir ki, tərəflər arası xarici ticarətin genişləndirilməsinin perspektivləri olmaqla müştərək müəssisələrin yaradılması və qarşılıqlı investisiya qoyuluşlarının artırılmasının potensial imkanları daha çoxdur.

**Tədqiqatın elmi yeniliyi** Baltikyanı ölkələrin Qərbi Avropaya inteqrasiyasının səmərəliliyinin və risklərinin tarixi təcrübəsi aşkar edilmiş, bununla da onların xarici ticarət strategiyasından Azərbaycanın faydalanaraq iqtisadi əlaqələrin qiymətləndirilməsində aşağıdakı yeniliklər ortaya çıxarılmışdır:

- xarici iqtisadi əlaqələrin konseptual əsasları tədqiq edilərək kiçik iqtisadiyyatlı ölkələrlərin beynəlxalq iqtisadiyyata inteqrasiyasına təsir edən müsbət amillərin qiymətləndiril-məsində yeni meyarlar müəyyənləşdirilmişdir.
- Azərbaycan və Baltikyanı ölkələrin ticarət əlaqələrinin əmtəə strukturunun genişləndirilməsinin potensial imkanlarını müəyyən edən iqtisadi qanunvericilik və vergi sistemindəki fərqliliklər müəyyən olunaraq yeni istiqamətlər akşar olunmuşdur.
- Qlobal iqtisadi proseslərin qeyri-müəyyənliyi şəraitində Avropa Birliyi ölkələrinin enerjiyə olan tələbatının ödənilməsi üçün Mərkəzi Asiya qazının Avropaya, eləcə də Baltikyanı ölkələrə çatdırılması məqsədilə Transxəzər layihəsində ölkəmizin iştirak imkanları qiymətləndirilmişdir;
- müəyyən mal qrupları və qrupdaxili mal növləri üzrə Azərbaycanın Baltikyanı ölkələrlə idxal-ixrac əməliyyatlarının potensial imkanları aşkara çıxarılmış, həmin imkanların reallaşmasının konkret yolları göstərilmişdir.
- Baltikyanı ölkələrin kənd təsərrüfatı məhsullarının emalı təcrübələri öyrənilmiş və bu təcrübənin Azərbaycanın kənd təsərrüfatında uyğun sahələrinin inkişafının mümkünlüyü iqtisadi cəhətdən əsaslandırılmışdır.

- Azərbaycanın Baltikyanı ölkələrlə elmi-texniki əməkdaşlığın səmərəli mexanizminin formalaşmasının təcrübi-metodiki əsasları işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Ölkələrarası iqtisadi əlaqələr mürəkkəb və çoxcəhətli olsa da, hər halda sistemli yanaşma yolu ilə ümumiləşmə aparmaqla daha konkret nəzəri fikir irəli sürülür. Nəzəri-konseptual müddəalar belədir ki, ölkələrarası iqtisadi əlaqələr ilk növbədə ikitərəfli qurulur, tədricən isə çoxtərəfli əlaqələr müstəvisinə keçir. Nəzəri əsaslarla aparılan tədqiqatlarda məntiqi ardıcıllıq yəni, tarixi proseslərdə də onun doğru olduğu göstərilir. Bu mənada tədqiqatda Azərbaycan ilk növbədə Baltikyanı ölkələrin hər biri ilə ayrılıqda iqtisadi əlaqələr qurur, daha sonra isə Qərbi Avropa inteqrasiya bloku ilə birgə əlaqələri qura biləcək.

Tədqiqatın təcrübəyə çıxışı ilk növbədə Azərbaycanın Baltikyanı ölkələr arasında mal qrupları üzrə ticarət etmək imkanları, daha sonra isə hər iki tərəfə fayda verə bilən qrupdaxili mal növləri üzrə ticarət etmək imkanları aşkarlanır və reallaşır.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin məzmunu üzrə tədqiqatçı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi yerli və xarici jurnallarda ümumilikdə 9 elmi məqalə və konfrans materialları, o cümlədən 5 məqalə və 4 tezis (1 məqalə və 1 tezis xaricdə) çap olunub. Dissertasiya işinin əsas müddəaları və irəli sürülən təkliflər beynəlxalq və respublika elmi-praktiki konfranslarda, o cümlədən "Beynəlxalq iqtisadi əlaqələrin qorunmasında xarici kapitalın rolu" (Bakı, 2019), "Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu" (Bakı, 2020), "Azərbaycan və Baltikyanı ölkələr arasında iqtisadi əlaqələr" (Bakı, 2021), "Kiçik açıq iqtisadiyyatlı ölkələrin xarici ticarətinin başlıca xarakteristikası" (Opole, 2021) konfrans materiallarında məruzə edilmişdir. Dərc olunan məqalələrə isə aşağıdakıları qeyd etmək olar: "Xarici iqtisadi əlaqələrin mahiyyəti və inkişaf qanunauyğunluqları" (Bakı, 2020), "Azərbaycanın Baltikyanı ölkələrlə iqtisadi əlaqələrinin inkişafı" (Bakı, 2021), "Kiçik açıq iqtisadiyyatlı ölkələrin xarici ticarət siyasətinin əsas xüsusiyyətləri" (Bakı, 2021), "Azərbaycanın postsovet ölkələri ilə ticarət əlaqələrinin əsas istiqamətləri" (Bakı,

2022), “Azərbaycan və Baltikyanı ölkələr arasında ticarət əlaqələrinin mövcud vəziyyətinin və inkişaf dinamikasının təhlili” (Buryatiya, 2022).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Bakı Biznes Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşdə 17 cədvəl, 19 diaqram, 3 qrafik, və 3 sxem verilmişdir. Tədqiqatın ümumi həcmi 233209 işarə, o cümlədən giriş – 13005 işarə, I fəsil – 61534 işarə, II fəsil – 71134 işarə, III fəsil – 62744 işarə, nəticə – 6007 işarə və istifadə edilmiş ədəbiyyat siyahısı – 17103 simvoldan ibarətdir. Dissertasiya cədvəllər, diaqramlar, qrafiklər və ədəbiyyat siyahısı istisina olmaqla cəmi 201089 işarəyə bərabərdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **“Giriş”**ində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti, müdafyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti, aprobasiyası şərh edilir və əsaslandırılır.

Dissertasiya işinin **“Xarici iqtisadi əlaqələrin formalaşmasının nəzəri metodoloji əsasları” adlı I fəslində** ölkələrarası iqtisadi əlaqələrin formalaşmasının nəzəri metodoloji əsası, iqtisadi əlaqələrin inkişaf qanunauyğunluqları və əsasən də kiçik iqtisadiyyatlı ölkələrin xarici ticarət siyasətinin əsas xüsusiyyətləri tədqiq olunur.

Ümumiyyətlə əlaqələr dedikdə burada iqtisadi, siyasi, ideoloji, diplomatik, hüquqi və digər qarşılıqlı əlaqələrdən söz açmaq olar. Bildiyiniz kimi, ölkələrarası əlaqələrin qrulması onlar arasında yaranan beynəlxalq iqtisadi münasibətlər və beynəlxalq əmək bölgüsü əsasında gerçəkləşir. İqtisadi münasibət olmaqla beynəlxalq iqtisadi münasibətlər də insan fəaliyyəti dairəsinə daxil olub, ictimayi-iqtisadi inkişafın ümumi qanunauyğunluqları ilə müəyyən edilir. Burada ayrı-ayrı ölkələr arasında yaranan böyük inteqrasiya birlikləri, ticarət əlaqələri, maliyyə münasibətləri, istehsal amillərinin

hərəkəti, təsərrüfat subyektlərinin qarşılıqlı hərəkəti və s. proseslər milli çərçivədən beynəlxalq miqyasa yükslir və beynəlxalq iqtisadi əlaqələri əks etdirir.

Beynəlxalq səviyyədə ölkələr arasında iqtisadi əlaqələr isə iki şəraitdə inkişaf edir:

1. Ölkələr arasında iqtisadi əlaqələrə ehtiyac olduqda;
2. Hər iki tərəf bu əlaqələrin inkişafında maraqlı olduqda.

Həmçinin, siyasi, milli, etnik və sosial amillər ölkələr arasında iqtisadi əlaqələrə təsir göstərir. Bu şəraitdə ölkələr arasında xarici iqtisadi münasibətlər beynəlxalq ixtisaslaşma və əməkdaşlıq, birgə müəssisələrin yaradılması, elmi-texniki əməkdaşlıq, xarici ticarət, lisenziyalar və texnologiyalar, beynəlxalq əmək miqrasiyası, sosial-mədəni xidmətlərin göstərilməsi, turizm, nəqliyyat xidmətlərinin təşkili, azad iqtisadi zonalar çərçivəsində yaranır.

A.Smit 1776-cı ildə yazdığı "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsərində bir çox problembrlə yanaşı, ticarət azadlığı məsələsinə də çox yer vermişdir. O, qeyd etmişdir ki, açıq iqtisadiyyatın bərqərar olması dünya təsərrüfatının obyektiv meyli hesab olunur. Açıq iqtisadiyyat birgə müəssisələrin, azad sahibkarlıq fəaliyyəti zonasının yaradılmasını, bir çox baxımdan xarici ticarət üzərində dövlət inhisarçılığının ləğv edilməsinə şərait yaradır. Alman iqtisadçısı C.Dustmann görə, açıqlıq və sərbəst ticarət lider ölkələrin iqtisadiyyatları üçün daha əlverişli oyun qaydalarına malikdir.[1] Lakin, uzun müddətdir ki, belə bir yanaşma artıq öz aktuallığını itirmişdir. Çünki ölkələrin açıqlığa can atması obyektiv xarakter almağa başladı və dünya təsərrüfat sisteminin qarşılıqlı inteqrasiyası və qloballaşması ilə şərtləndi.

Milli iqtisadiyyatın beynəlxalq iqtisadiyyata qovuşmasına təsir edən amilləri qiymətləndirdikdə aşağıdakı meyarlar nəzərə alınmalıdır.

Birinci, milli iqtisadiyyatın qlobal dəyər zəncirində iştirak səviyyəsinin gücləndirilməsidir. Burada istehsalın daha optimal qiymətə başa gəlməsi üçün mümkün xüsusiyyətlər nəzərə alınmalı və istehsalın lazmı dərəcədə diversifikasiyasını təmin etməlidir. Əlbəttə

---

[1] Dustmann, C., F. Fasani, T. Frattini, L. Minale, and U. Schnberg (2017a). "On the Economics and Politics of Refugee Migration." Economic Policy, 32(91), 497-550.

ki, burada ucuz işçi qüvvəsi və münasib mühitin olması əsas götürüləcək. İkinci, milli iqtisadiyyatda milli məhsulların beynəlxalq bazarlara çıxışı üçün tələb olunan rəqabətlilik, üçüncü isə, milli iqtisadiyyatda geniş təkrar istehsal mərhələlərinin ölkənin sərhədləri daxilində başa çatması və brendləşmə səviyyəsi daxildir. Müasir bazar iqtisadiyyatı şəraitində ölkələrarsı iqtisadi əlaqələrin konseptual əsasına diqqət etdikdə bu meyyarlar, xüsusi ilə rəqabətqabiliyyətlilik kiçik açıq iqtisadiyyatlı ölkələrin əsas hədəfi hesab olunur.

Tədqiqatlar göstərir ki, Azərbaycan kimi iqtisadiyyatı kiçik olan ölkələrlərin xarici ticarət siyasətinin üç struktur elementini fərqləndirmək olar[2]:

1. Xarici ticarətin, xüsusilə ixracın inkişafı və diversifikasiyasının dövlət tərəfindən dəstəklənməsi. Təcrübə göstərir ki, xarici ticarətə dövlət dəstəyi müxtəlif metod və alətlər vasitəsilə həyata keçirilir, eləcə də milli maraqların və ixracın stimullaşdırılması üzrə tədbirlər həyata keçirilir. Belə bir dəstək idxalın əvəzlənməsi və ixracyönümlü inkişaf modeli çərçivəsində geniş yayılmışdır.

2. Xarici ticarətin inkişafı üçün zəruri olan infrastruktur və qanunvericilik bazasının təkmilləşdirilməsi, bu istiqamətdə beynəlxalq normalara uyğunlaşma. Xarici ticarət infrastrukturu ölkənin xarici ticarətinin həcminin, yəni onun açıqlıq dərəcəsinin genişlənməsinə, idxal-ixrac əməliyyatlarının strukturunun diversifikasiyasına, xarici ticarətdə iştirakçıların sayının genişlənməsinə xidmət edir.

3. Çoxtərəfli milli iqtisadi maraqların qorunması. Xarici ticarət siyasətinin üçüncü elementi kimi ölkənin milli maraqlarının qorunması ikitərəfli iqtisadi-ticarət əlaqələrinin formalaşdırılmasını, bu istiqamətdə mövcud olan məhdudiyyətlərin aradan qaldırılmasını nəzərdə tutur. Bu məqsədlə adətən ölkələr müxtəlif ticarət təşkilatlarında vahid qayda əsasında iqtisadi-ticarət münasibətlərinin qurulmasına üstünlük verirlər.

---

[2] Qənbərov, F. Azərbaycanın xarici iqtisadi əlaqələri: nailiyyətlər və perspektivlər. Kollektiv monoqrafiya. AMEA iqtisadiyyat İnstitutu. s.113-160.

Beləliklə, xarici ticarətin genişlənməsi və diversifikasiyası, eləcə də coğrafi baxımdan İEÖ-in yaratdığı dəyər zəncirinə qoşulma ticarət infrastrukturun inkişafını və liberal siyasət tələb edir. Eyni zamanda idxalın əvəzlənməsi siyasəti ixracayönəlməni də nəzərə almalıdır. İdxal və ixracın tənzimlənməsi üzrə iqtisadi alətlər mövcud olsa da, milli istehsalçı və istehlakçıların maraqlarının müdafiəsi, ikitərəfli iqtisadi-ticarət əlaqələrin qarşılıqlı güzəştlərə önəm verilməlidir. Xarici ticarət siyasətində Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr ticarət əməliyyatlarında yüksək texnoloji bazarlara istiqamətlənməni prioritet kimi nəzərə almalıdırlar.

Dissertasiya işinin **"Azərbaycanın Baltikyanı ölkələrlə iqtisadi əlaqələrinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi" adlanan II fəsildə** Azərbaycanın Latviya, Litva və Estoniya dövlətləri ilə iqtisadi əlaqələrin hazırki vəziyyyəti və dünyada baş verən sosial-iqtisadi proseslərin ölkələrarası əlaqələrinə təsirindən bəhs edilir.

Bu ölkələrin ərazisi 64,5 min kv/km, 65,3 min kv/km və 45,3 min kv/km olmaqla cəmi 175.1 min kv/km sahəyə malik olmaqla Baltik dənizinin sahilində yerləşirlər. Hər üç ölkənin iqtisadiyyatı 1991-ci ildən müstəqilliklərini əldə etdikdən sonrakı illərdə, əsasən də 2000-2007-ci illərdə sürətli inkişaf etməsi nəticəsində "Baltik Tiger" ölkələri də adlandırılmışdır. 2000-2007-ci illər arasında Baltik Tiger dövlətlər Avropada ən yüksək artım tempinə sahib idi. Bu ölkələrin 2004-cü ildə Avropa Birliyinə qoşulması onların dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirmişdir. 2008-ci il "Dünya Böhranı"nı çıxmaqla bu ölkələrin makroiqtisadi göstəriciləri artmaqda davam etmişdir. Ölkələrarası gömrük tariflərinin asanlaşdırılması və ÜTT-ə üzv olması Baltikyanı ölkələrin xarici iqtisadi əlaqələrini genişləndirmişdir ki, nəticə etibari ilə bu ölkələrdə özəlləşdirmə siyasətinin aparılması, xidmət sektorunun sürətli şəkildə inkişaf etməsinə gətirmişdir. Aparılan liberal bazar iqtisadiyyatının təşkili onların İEÖ qrupuna yaxınlaşdırmışdır.

Baltikyanı ölkələrin xarici iqtisadi əlaqələri əsasən yaxın qonşu və inkişaf etmiş ölkələrin iqtisadiyyatına köklənmişdir. İnvestisiya mühitinin olması və Almaniya, Skandinaviya sahibkarlarının bura olan maraqlarının artırılması bu ölkələrin istehsal, xidmət və emal

sahələrinin yüksək inkişaf etdirilməsinə gətirmişdir. Xarici iqtisadi əlaqələrin qurulmasında təşkil olunan beynəlxalq siyasət, əsasəndə iqtisadiyyatın xaricə istiqamətlənməsi ölkələrin inkişafında böyük təsir yaratmışdır.

Azərbaycan və Baltikyanı ölkələr arasında əlaqələr ilk öncə XX əsrin əvvəllərindən mövcud olmuşdur. Bu dövrdə Bakıda Latış Cəmiyyəti fəaliyyət göstərmişdir.

Qeyd etmək lazımdır ki, bu ölkələrin hər biri sənaye-aqrar ölkələrdir. Baltik ölkələrin iqtisadiyyatının əsasını qida məhsulları, ağac və ağac məhsulları, metal, maşın və avadanlıq və tekstil təşkil etdiyi kimi, Azərbaycan iqtisadiyyatının əsasını da neft və qaz hasilatı, neft emalı, elektrik enerjisi sənayesini əhatə edən yanacaq-enerji kompleksi, kimya, maşınqayırma, elektrik, qara və rəngli metallurgiya təşkil edir, pambıq, üzüm, tütün, çay, subtropik bitkilər kənd təsərrüfatının əsasını təşkil edir.

Vurğulanmalıdır ki, yalnız 2022-ci ildə idxal olunan məhsulların ümumi həcminin 18,7 faizi Rusiya Federasiyasının, 15,7 faizi - Türkiyə, 14,3 faizi - Çin, , 4.5 faizi – Almaniya, 3,2 faizi - ABŞ, 2.9 faizi – İtaliya, 1,7 faiz Ukrayna (2021-ci ildə 4 faiz olub) olduğu halda cəmi 0,28 faizi isə Baltikyanı ölkələrin payına düşür. Eyni zamanda ixrac olunan məhsulların ümumi həcminin 46,6 faizi-İtaliyanın (2020-ci ildə 28,7 faiz olub), 9,2 faizi-Türkiyə, 4,4 faizi-İsrail, 4,3 faizi-Hindistan və 2,5 faizi Rusiyanın olduğu halda cəmi 0,03 faizi Baltik ölkələrinin payına düşür.

Qrafik və Cədvəl 1-dən göründüyü kimi bu ölkələr müstəqilliklərini qazandıqları dövrdən sonrakı ilk on il ərzində ticarət əlaqələri çox zəyif olmuşdur. Lakin, 2005-ci ilə kimi ixracın idxaldan çox olması Azərbaycanın bu ölkələrlə ticarət balansını müsbət saldo ilə qiymətlənmiş və xüsusi çəkisi artmağa başlamışdır. 2015-ci ildə aparılan devalvasiyanın təsiri nəticəsində Azərbaycanın dünya ilə o cümlədən Baltikyanı ölkələri ilə ticarət əməliyyatlarının dinamikasında azalma baş verdi. Hətta, 2015-ci ildə hər bir ölkəyə ixrac olunan məhsulların xüsusi çəkisi 1 milyon dollardan az idi.




**Qrafik. Azərbaycanın Baltikyanı ölkələrlə xarici ticarət dövriyyəsi (mln.dollar)**

*Mənbə: https://data.worldbank.org/indicator/ Qrafik statistik məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.*

**Cədvəl 1**

**Azərbaycanın Baltikyanı ölkələr ilə idxal və ixracnın həcmi (mln.dollar)**

| Ölkələr / İllər | Latviya | | Litva | | Estoniya | |
|---|---|---|---|---|---|---|
| | İdxal | İxrac | İdxal | İxrac | İdxal | ixrac |
| **2000** | 0.44 | 12.59 | 1.03 | 2.44 | 0.25 | 0.70 |
| **2005** | 1.50 | 5.37 | 2.03 | 4.94 | 1.07 | 1.56 |
| **2010** | 6.70 | 3.89 | 26.19 | 2.05 | 6.65 | 0.46 |
| **2015** | 8.34 | 0.80 | 26.94 | 0.51 | 5.69 | 0.25 |
| **2019** | 11.80 | 0.85 | 19.51 | 2.12 | 2.14 | 2.59 |
| **2020** | 11.79 | 0.87 | 22.07 | 2.36 | 3.25 | 1.59 |
| **2021** | 17.30 | 9.87 | 28.12 | 13.90 | 4.33 | 1.79 |
| **2022** | 18.74 | 27.60 | 26.40 | 6.50 | 7.15 | 2.23 |

*Mənbə: https://stat.gov.az Cədvəl statistik məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.*

2019-cu ildə ölkənin xarici ticarət dövriyyəsi ki 39,1 milyard dollar təşkil etmişdir ki, bu da 2010-2015-ci illərlə müqayisədə

azalmışdır. 2020-ci ildən etibarən Azərbaycanın bu ölkələrlə idxal və ixracındakı payı kəskin artmış və ticarət dövriyyəsi 2022-ci ildə 88,62 milyon dollara çatmışdır. Belə ki, Latviya istisina olmaqla, digər iki ölkəyə ixrac olunan məhsulların xüsusi çəkisi idxalla müqayisədə 3-4 dəfə azdır. 2021-ci illə müqayisədə, 2022-ci ildə Latviyaya ixrac olunan məhsulların xüsusi çəkisi 3 dəfə artaraq 27,60 mln dollar, Litvaya ixrac olunan məhsulların çəkisi 2 dəfədən çox azalaraq 6.50 mln.dollar olmuşdur. Estoniyaya ixrac olunan məhsulların çəkisi isə, 1,5 dəfə artaraq 2.23 mln.dollar olmuşdur.

Azərbaycanın Baltikyanı ölkələrlə ticarət dövriyyəsinin mühüm hissəsini kənd təsərrufatı, yeyinti, yungul, neft, kimya və tikinti, əczacılıq məhsulları tutur. İdxal həcmini məhsul növünə görə qiymətləndirərkən asanlıqla onların 33,0%-nin maşın və nəqliyyat avadanlığı, 32,3%-i qida məhsulları, 13,9%-i ərzaq və diri heyvanlar, 9,2%-i ağac və mebel, 8%-i kimyəvi məhsullar, ixrac olunan məhsulların əsas hissəsini – 42%-i sürtkü yağları, 28%-i xam material və tərəvəzlər, 10%-i içkilər və tütün məhsulları, 4%-i mineral sular, qeyri-ərzaq xammalı və digər mallar olduğunu görmək olar.

Azərbaycan və Baltikyanı ölkələr müstəqillik əldə etdikdən sonra tək iqtisadi sahədə deyil, eləcə də humanitar sahədə də əlaqələrini daima genişləndirmişlər. Ölkələr arası bir çox elmi-texniki əməkdaşlıq qurulmuş və inkişaf etdirilmişdir. Latviya ilə ilk hökumətlər arası elmi-texniki əməkdaşlıq 2005-ci il də Bakıda keçirilmişdir. Əməkdaşlıq çərçivəsində ölkələr arasında nəqliyyat, iqtisadiyyat, informasiya texnologiyaları və rabitə, kənd təsərrüfatı, ətraf mühit və regional inkişaf, təhsil və elm, turizm, səhiyyə, bank əməkdaşlığı sahələrində birgə müzakirələr aparılmış və müxtəlif layihələr qəbul olunmuşdur.

Hazırda Azərbaycan Respublikası Baltikyanı ölkələrlə siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın gücləndirilməsinə dair əhəmiyyətli qərarlar qəbul edərək mühüm sazişlər imzalamışdır. Xüsusilə, 2017-2019-cu illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Baltikyanı ölkələrə səfəri zamanı nəqliyyat, tikinti və təhsil sahələrində əməkdaşlığa dair sazişlər ilə yanaşı, "Strateji Tərəfdaşlığın Yaradılması Haqqında

birgə Bəyannamə" də imzalanmışdır. Hal-hazırda respublikamızda tikinti, sənaye, rabitə, nəqliyyat, ticarət, bank, İT və kənd təsərrüfatı sahəsində Latviyanın 40-a yaxın, Litvanın 15, Estoniyanın isə 14 şirkəti fəaliyyət göstərir.

Dissertasiya işinin **"Azərbaycan və Baltikyanı ölkələr arasında iqtisadi əlaqələrin inkişaf prespektivləri" adlanan III fəslində** - Baltikyanı ölkələrin inkişaf xüsusiyyətləri, ölkələrarası ticarət əlaqələrinin inkişaf istiqamətləri və investisya qoyuluşu imkanları tədqiq edilir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın ÜDM Baltikyanı ölkələrdən heçdə fərqlənmir. Belə ki ÜDM-in həcminə görə Litva 83-cü, Latviya 95-ci, Estoniya 97-ci sırada olmasına baxmayaraq, Azərbaycan 91-ci yerdə qərarlaşır. Lakin, beynəlxalq reytinqdə adambaşına düşən ÜDM səviyyəsinə görə isə Estoniya 37-ci, Litva 40-cı, Latviya 42-ci sırada olduğu halda, Azərbaycan 94-cü sırada qərarlaşmışdır. Bunu onunla əlaqələndirmək olar ki, Azərbaycan öz xarici ticarət əlaqələrini inkişaf etmiş ölkələrə deyil, aşağı gəlirli MDB bazarına fokuslanmışdır. Bunun da, əsas səbəbi əvvəlki fəsildə qeyd edildiyi kimi, istehsalın aşağı texnoloji mürəkkəbliyə malik olması və xam məhsul ixracı üzrə təmərküzləşməsidir. Lakin, Baltikyanı ölkələr postsovet ölkəsi olsa da xarici iqtisadi əlaqələrinin düzgün siyasəti onları Avropanın qabaqcıl ölkələrindən etmişdir. Buna görə də, bu ölkələrin adambaşına düşən ÜDM-i, ardıcıl olaraq Latviya-22 min, Litva-25 min, Estoniya-28 min ABŞ dolları olduğu halda, Azərbaycanda bu göstərici 7 min ABŞ dolları təşkil edir.

Baltik ölkələrinin statistik məlumatlarına əsasən ümumilikdə ÜDM-in təxmini 7%-i tikinti, 23%-i, nəqliyyat və anbar təsərrüfatı, yerləşdirmə və ərzaq xidmət fəaliyyəti, topdan və pərakəndə ticarət(otel və restoranlar daxil olmaqla), 14%-i rabitə və informasiya, 9%-i elm-texnika, 10-13%-i daşınmaz əmlakın fəaliyyəti, 4% maliyyə və sığorta xidməti, 14%-i dövlət idarəetməsi və müdafiə, icbari sosial təminat, təhsil, insan sağlamlığı və sosial iş fəaliyyəti, 4%-i incəsənət, əyləncə və istirahət, xidmətlərin göstərilməsi təşkil edir. Cədvəl 2-də ayrılıqda ölkələr üzrə göstərilmişdir.

**Cədvəl 2**

**Baltikyanı ölkələrinin ÜDM-də (sənaye və kənd təsərrüfatını çıxmaqla) digər sektorların payı (2022-ci il, faizlə)**

| | Latviya | Litva | Estoniya |
|---|---|---|---|
| Tikinti | 7 | 8,5 | 6,7 |
| Topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri, Nəqliyyat və anbar təsərrüfatı, | 23 | 26 | 20,5 |
| İnformasiya və kommunikasiya | 6 | 7 | 7,8 |
| Maliyyə və sığorta fəaliyyəti | 3 | 4,5 | 5,1 |
| Daşınmaz əmlakın fəaliyyəti | 13 | 11 | 9,6 |
| Dövlət idarəetməsi və müdafiə, icbari sosial təminat, Təhsil, İnsan sağlamlığı və sosial iş fəaliyyəti | 18 | 13,4 | 10 |
| İncəsənət, əyləncə və istirahət, digər xidmətlərin göstərilməsi, işəgötürənlər kimi ev təsərrüfatlarının fəaliyyəti | 3 | 3,4 | 2.7 |

*Mənbə:* https://stat.gov.lv/ , https://osp.stat.gov.lt/, https://andmed.stat.ee/
*Cədvəl müəllif tərəfindən hazırlanmışdır.*

Uyğun olaraq Azərbaycanda 11,5% ticarət, 7,7% tikinti, 7,1% nəqliyyat, 6,9% kənd təsərrüfatı, 1,8% rabitə, 1,2% turizm, 0,2% təhsil və s. təşkil edir.

Araşdırmalardan göründüyü kimi bu ölkələrdə xidmət eləcə də, onun tərkibində olan təhsil Baltikyanı ölkələrin ÜDM-də 5%-dən çox təşkil edir. Bu səbəbdən də ölkələr arası aşağıdakı istiqamətdə elmi-texniki əməkdaşlığın qrulması tövsiyə olunur.

- elm və texnikanın nailiyyətlərinin tətbiqi proseslərinin dinamikliyi hesabına sahibkarlıq strukturlarının innovativ fəaliyyətinin səmərəliliyinin artırılması;
- innovasiya sisteminin formalaşdırılması üçün respublika və yerli özünüidarəetmə orqanlarının səylərinin birləşdirilməsi üçün hüquqi şəraitin yaradılması;
- yeni texnologiyaların kommersiyalaşdırılmasının və istehsalata tətbiqinin stimullaşdırılmasına yönəlmiş vergi, gömrük və tarif siyasəti tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi;
- elmi-texniki fəaliyyətin nəticələrinin yaradılmasında və təsərrüfat

dövriyyəsinə cəlb edilməsində bütün hüquqi münasibətlər subyektlərinin, ilk növbədə investorların, yaradıcı kollektivlərin və təşkilatların marağını təmin edən iqtisadi həvəsləndirmə sisteminin yaradılması;

- ikitərəfli tələbə, müəllim və tədqiqatçıların mübadiləsini artırmaq.

Ölkələrarası iqtisadi əlaqələrin inkişafı üçün ilk öncə Azərbaycanın Avropa, o cümlədən Baltikyanı ölkələrin bazarına çıxması üçün mühüm məsələlərdən biri - coğrafi yerləşmə və nəqliyyat məsələsinə baxmaq lazımdır. Son dövrlər ölkənin malik olduğu iri beynəlxalq nəqliyyat layihələri Avropa bazarlarına çıxış üçün mühüm potensial imkanlar yaradır. Azərbaycan beynəlxalq nəqliyyat dəhlizinin genişləndirilməsi üçün dəmiryolları və eləcə də qonşu Türkiyə vasitəsi Avropa və Asiya ticarət qovşağını yaradır. 2022-ci ilin fevral ayında Rusiya-Ukrayna müharibəsi nəticəsində Aİ ölkələrində, eləcə də Baltikyanı ölkələrdə enerji qiymətlərində kəskin artım müşahidə olunmuşdur. Bununla da Azərbaycanın Bakı-Tbilisi-Qars dəmiryolu, Bakı-Tbilisi-Ceyhan neft boru xətti və TAP qaz ixracı boru kəməri vasitəsi ilə ölkənin qlobal bazarlara çıxış imkanları daha da artacaq və rəqabət üstünlüyünü gücləndirəcəkdir.

2021-ci ildə Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci sammiti çərçivəsində Azərbaycan, İran və Türkmənistan arasında qaz tədarükünə dair saziş imzalanmışdır. Burada əsas məqsəd Türkmənistan qazının həm Transxəzər həm də, İran vasitəsi ilə Avropa bazarına çatdırılması nəzərdə tutulur. Buradan belə qənaətə gəlmək olar ki, TAP layihəsi ilə ötürülən qazın həcminin 1,5-2 milyard kubmetr artırmış olacaq. Nəticə olaraq Avropanı Asıya qazı ilə təmin etmək mümkün olacaq. Aydın məsələdir ki, bu qaz təkcə Avropa üçün nəzərdə tutulmayıb. İlin soyuq mövsümdə şimal əyalətlərində qaz qıtlığı yaranır, yəni onun istehlakı artır, təzyiq isə azalır. Bu isə öz növbəsində Avropaya nəql olunan neft nəqlinin həcmini azaldacaq. Buna görə də, İran əvəzində özünün şərq əyalətlərini qazla təmin edəcək ki, bu da İranın beş vilayətində əbədi qaz çatışmazlığı problemini həll edəcək. Son nəticədə saziş İran qazının Avropaya ixracı üçün perspektivlər yarada bilər.[3]

---

[3] https://haqqin.az/news/227889

Azərbaycanın da bu sazişdə üstünlüyü olacaqdır. Belə ki, Azərbaycanın qaza olan tələbatı artır. Çox güman ki, Aşqabadla ortaq dil tapılıb və Türkmənistandan tədarük olunan qaz "Şahdəniz" yatağından xeyli ucuz başa gələcək. Xəzər dənizinin Türkmənistan hissəsində əsas əməliyyatlarını həyata keçirən və Türkmənistan neftinin əsas hissəsini çıxaran "Dragon Oil" (Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya) bu nefti Bakı limanı vasitəsilə ixrac edir. Beləliklə, Türkmənistandan ucuz qiymətə alınan qazı daxili bazarda istifadə edib və Azərbaycan qazını xaricə nəql olunması təşkil olunacaq.

Aparılmış tədqiqatlar onu göstərir ki, bəzi məhsulların Baltikyanı ölkələrə idxalı və eləcə də, Azərbaycandan bu ölkələrə ixracı aparılmasa da, həmin məhsullar üzrə böyük potensial vardır. Nəzərə alsaq ki, son illər Rusiyadan idxal olunan bir-çox məhsulların qiymətləri kəskin dərəcədə artmışdır və buda qrafikdə göstərilən potensial məhsulların idxal-ixracının Baltikyanı ölkələr hesabına təmin olunmasında ən optimal şansdır.




**Diaqram. Azərbaycandan və Baltikyanı ölkələr arasında müəyyən mal qrupları üzrə idxal və ixracın potensial imkanı (mln.dollar)**

*Mənbə: https://exportpotential.intracen.org/en/products/gap-chart*

Yuxarıdakı diaqrama əsasən Azərbaycan Baltikyanı ölkələrdən 5,3 mln. dollar taxta materiallar, 2 mln. dollar həcmində isə tibbi

ləvazimatların idxal olunması potensialı vardır. Eyni zamanda, 2,8 mln.dollar təzə meyvə, 1,7 mln.dollar təzə pomidor və 0,9 mln.dollar həcmində isə elektrik enerjisi Azərbaycandan Baltikyanı ölkələrə ixrac olunma potensialı vardır.

Fikrimizcə, ölkələrin xarici ticarət potensialını və dünya bazarında mövqeyini nəzərə almaqla, ikitərəfli əməkdaşlıq üzrə perspektiv sahə kimi aşağıdakılar mühüm maraq doğura bilər:

- Enerji və nəqliyyat sektorlarının inkişaf etdirilməsi, bu sahədə əməkdaşlığın daha da gücləndirilməsi;
- Birgə istehsal fəaliyyətinin qurulması üçün qarşılıqlı məlumat mübadiləsinin gücləndirilməsi, maliyyə sektoruna investisiya qoyuluşunun stimullaşdırılması;
- Azərbaycanda elektrotexnika, neft maşınqayırması, qida sənayesi və digər prioritet sahələrə Baltik ölkələrinin texnologiyasının cəlbi istiqamətlərinin nəzərdən keçirilməsi.
- Azərbaycanın qeyri-neft ixracı üçün potensial bazarlar olan üçüncü ölkə bazarlarına ixrac imkanlarına fokuslanmaya, eləcə də xammal ixracından hazır məhsul ixracına keçid üçün mühüm əhəmiyyət kəsb edə bilər. Bu məqsədlə, yalnız hökumətlərarası deyil, həm də özəl sektor portnyorluğu və üçüncü ölkənin iştirakı ilə qarşılıqlı iqtisadi əməkdaşlıqdan faydalanma tələb olunması;
- neft maşınqayırması, elektrotexnika, toxuculuq sənayesi, kənd təsərrüfatı maşınları və digər zəruri maşın və avadanlıqların təchizatının həyata keçirilməsi;
- birgə sənaye kompleksinin təşkili;
- sosial infrastrukturun, idman və turizm obyektlərinin inkişafı;
- qeyri-ənənəvi və alternativ enerji mənbələrinin inkişafı üzrə təcrübə mübadiləsi;
- Azərbaycan və Baltikyanı ölkələrin təsərrüfat subyektləri üçün iqtisadiyyatın maraqlı sahələrində əlverişli şəraitin yaradılması.

Yuxarıda qeyd olunan təklifləri yerinə yetirmək üçün tərəflər birgə müəssisə və təşkilatlarının, habelə biznes strukturlarının yaradılması üzrə proqramlar hazırlamalıdır. Eyni zamanda müvafiq nazirlik və idarələrin, müəssisə, təşkilat və şirkətlərin, biznes və

digər maraqlı strukturların nümayəndələrinin iştirakı ilə investisiya forumlarının və görüşlərin keçirilməsi ilə potensial investorları cəlb etməlidirlər.

Beləliklə, Baltikyanı ölkələrin iqtisadi inkişaf istiqamətlərini nəzərdən keçirmiş olsaq Azərbaycana qoyulan investisiyaların potensial istiqamətləri aşağıdakılardır:

- nisbətən az enerji polimer materiallarının istehsalı;
- yerli istehlak və ixrac yönümlü qara metallurgiya məhsullarının istehsalı;
- əlvan metal və qırıntılarından yerli istehlak və ixrac yönümlü son məhsul istehsalı (aliminium oksidləri və emal olunmuş aliminium, mis, qızıl, gümüş, platin və s.);
- alternativ və bərpa olunan enerji mənbələrindən enerji istehsalında istifadə olunan müxtəlif növ avadanlıqların istehsalı;
- plastik qabların istehsalı;
- avtomobil nəqliyyatı üçün ehtiyat hissələrinin hazırlanması;
- inşaat materiallarının istehsalı;
- tibbi məmulatların istehsalı;
- kənd təsərrüfatı məhsullarının emalı;
- ərzaq məhsullarının istehsalı;
- taxta materiallarının hazırlanması texnologiyalarının tətbiqi;

Bundan başqa, aqrar sektorun maddi-texniki bazasının inkişaf etdirilməsi üzrə Baltik ölkələrinin təcrübəsindən yararlanmaq üçün aşağıdakı investisiya istiqamətinidə ön plana çəkilməlidir:

- kənd təsərrüfatı məhsullarının uzunmüddətli saxlanılması məqsədilə regionlarda soyuducu kameralar, anbarlar, elevatorlar və s yaradılması;
- kənd təsərrüfatı texnikası və ehtiyat hissələrinin, gübrələrin və bitki mühafizəsi vasitələrinin, baytarlıq preparatlarının istehsalı;
- heyvandarlıq və quşçuluq sənayesinin tələbatını təmin etmək üçün müasir tipli yem emalı müəssisələrinin tikintisi və məhsul istehsalı;
- un dəyirmanlarının tikilməsi.

Baltikyanı Litva və Estoniya kimi ölkələrin İKT sahəsində son illər yüksək ixtisaslaşdıqları üçün bu istiqamətdə də investisiya mühitini artırmaq lazımdır. Bunlar aşağıdakılardır:

- mövcud maşınqayırma müəssisələrinin özəlləşdirilməsinə müasir texnologiyalar, elektronika və müvafiq "now-how" malik xarici investorların cəlb olunması;
- rəqəmsal yayımverici və qəbuledici avadanlıqların istehsalı;
- komputer texnologiyaları;

Bildiyimiz kimi, Baltikyanı ölkələrin ÜDM-də ən böyük payı xidmət sektoru tutur. Nəzərə alsaq ki, ölkəmizdə, əsasəndə Qarabağ bölgəsində turizmin inkişaf etməsi üçün böyük potensial var və aşağıdakı istiqamətlərdə investisiyaların cəlb olunması yaxşı olar:
- dağ idman növlərinin inkişafı;
- kurirt-sanatoriya, turist-baza kompleksləri;
- müalicəvi turizm istirahət mərkəzləri;

## NƏTİCƏ

Azərbaycan Respublikası ilə Baltikyanı ölkələr arasında iqtisadi əlaqələrə sistemli yanaşma, müqayisəli təhlili və statistik qruplaşdırılma əsasında aparılan ümumiləşdirilmə bizə təşkilati, iqtisadi və hüquqi xarakterli mühüm potensial ehtiyatları aşkara çıxarmağa, eyni zamanda aşağıdakı təklif və tövsiyələri işləyib hazırlamaq imkanı verdi:

1. Azərbaycan kimi eyni ildə müstəqilliyini bərpa edən Baltikyanı ölkələr Avropaya tez bir zamanda inteqrasiya olunaraq İEÖ-in təcrübəsindən yararlanmışdır və hal-hazırda Avropanın ən öndə gedən ölkələri sırasında yerləşirlər. Bundan əlavə təbii sərvətlər və coğrafi məkan baxımından Azərbaycanla müqayisədə geri qalmasına baxmayaraq makroiqtisadi göstəricilərin bu ölkələrdə yüksək olması onu göstərir ki, Baltikyanı ölkələrin iqtisadi təcrübəsindən bəhrələnmək məqsədəuyğun olardı.
2. Baltikyanı ölkələrin xarici iqtisadi əlaqələrində təşkil olunan beynəlxalq siyasət, əsasən də iqtisadiyyatın xaricə istiqamətlənməsi ölkənin inkişafında böyük təsir yaratmışdır. Aİ-na qoşulması ölkələrarası gömrük tariflərinin asanlaşdırılması, ÜTT-yə üzv olması bu ölkələrin xarici iqtisadi əlaqələrini genişləndirmiş, xidmət sektorunun sürətli şəkildə inkişaf etməsinə gətirib çıxarmışdır.

Aparılan liberal daxili və xarici iqtisadi siyasətin uğurla reallaşması onları İEÖ qrupuna yaxınlaşdırmışdır.

3. Fikrimizcə, Azərbaycan kimi kiçik açıq iqtisadiyyatlı ölkə həmyaşıdı (müstəqilliyin bərpa edilməsi, ərazi və iqtisadi potensialı baxımında) olan Baltikyanı ölkələrin iqtisadi siyasətinin uyğun istiqamətlərindən bəhrələnsə daha sürətli iqtisadi inkişafa nail olacaqdır.

4. Qeyd edək ki, Baltikyanı ölkələrin daxili investisiyaları xaricə qoyulan investisiyalardan daha çoxdur. Bu ölkələrdə verg yükünün Avropa ölkələri arasında ən aşağı olması, xarici investorlar üçün əlavə vergi güzəştlərinin tətbiq edilməsi xarici birbaşa investisiyaların (əsasəndə İEÖ-in) daha da sürətli olmasına səbəb olmuşdur.

5. Baltikyanı ölkələrin Qərbi Avropa ölkələri ilə xarici ticarət dövriyyəsində sabit artım meylinə malik olsa da, Azərbaycanın bu ölkələrlə qarşılıqlı xarici ticarət dövriyyəsi qeyri-stabildir. Bu, onunla əlaqədardır ki, həm Azərbaycan iqtisadiyyatı qlobal ticarət-iqtisadi böhranlara qarşı kifayət qədər həssaslığa malikdir, həm də məsafə baxımından ticarət tərəfdaşları yaxın qonşu ölkələrə köklənmişdir. Digər tərəfdən də, Baltikyanı ölkələr Aİ-nın üzv ölkələri olması bu əlaqələrin qurulmasında müəyyən hüquqi-iqtisadi məsələləri ortaya qoyur.

6. Baltik ölkələri arasında Litva kimya sənayesi üzrə ixtisaslaşdığını nəzərə alaraq Litvanın kimya sənaye müəssisələri ilə Azərbaycanın kimya sənaye müəssisələrinin birgə fəaliyyəti yaradılmalı, qeyd edilən istiqamətlər üzrə ixtisaslı kadırların birgə hazırlanması, təkminləşdirilməsi və onların təcrübəsindən yararlanma imkanları artırılmalıdır.

7. Baltikyanı ölkələr neft-qaz məhsullarına olan aslılığın aradan qaldırılmasında Avropa Birliyinə daha güclü inteqrasiya olunmasının öz əhəmiyyəti vardır. Bu mənada Aİ-nın dəstəklədiyi Cənubi Qaz dəhlizinin TAP layihəsi çərçivəsində Azərbaycan və Türkmənistan qazının Aralıq dənizi vasitəsi ilə Avropa bazarına, eləcədə Baltik dənizinə çatdırılması imkanlarının reallaşdırılmasına daha çox önəm verilməsi məqsədəuyğun olardı.

8. Baltikyanı ölkələrlə İEÖ arasında yaranan dəyər zəncirindən istifadə edərək Azərbaycanla xarici ticarətin genişlənməsi istiqamətində potensial imkanların reallaşdırılmasına və tərəflərin bundan yararlanamsına ehtiyac vardır.

9. Baltikyanı ölkələrin Azərbaycanla ticarət əlaqələrinin genişləndirilməsinin potensial imkanlarının kəmiyyət parametrləri göstərir ki, Azərbaycan öz xarici ticarət əlaqələrini orta gəlirli MDB bazarı ilə yanaşı, Asiya və Avropa ölkələri istiqamətinə yönəlməsi imkanları daha çox artırılacaqdır.

10. Baltikyanı ölkələr Avropanın İEÖ-dən xarici birbaşa investisiya cəlbinin stimullaşdırılması nəticəsində ölkə iqtisadiyyatının inkişaf səviyyəsi kəskin dərəcədə artmışdır. Araşdırmalar əsasında müəyyən olunmuşdur ki, digər Avropa ölkələri ilə müqayisədə burada aşağı mənfəət vergisi var. (Litva-15%, Latviya-18%). Estoniyanı xüsusilə cəlbedici edən, bölüşdürülməmiş mənfəətdən sıfır faizlik korporativ gəlir vergisidir. Hal-hazırda Estoniyanın vergi sistemi dünyanın ən liberal və sadə sistemlərindən biridir. Kiçik şirkətlər üçün xüsusi vergi dərəcələri təklif edir ki, bu da investorların xüsusi marağına səbəb olur. (Mənfəət vergisinin 2011-ci ildə 9%-a qədər, hazırda 15%). Eyni zamanda, yenidən investisiya edilmiş mənfəətdən korporativ gəlir vergisi yoxdur. Hesab edirik ki, Azərbaycan da, bu siyasətdən səmərə əldə edə bilər.

11. Estoniya və Azərbaycan arasında "Azərbaycan ali təhsil müəssisələrində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi" (ENGAGE) mövzusunda universitetlərarası birgə seminarların keçirilməsi məqsədəuyğun hesab edilir. Bu layihə gələcək dövrlərdə Azərbaycan ali təhsil müəssisələrində birgə ixtisaslı kadr hazırlığı ekosisteminin gücləndirilməsinə, akademik heyətin və tələbələrin sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsinə, elektron idarəetmə, universitetlərimizdə inovativ yanaşmanın təkmilləşdirilməsinə və startap fəaliyyətinin inkişaf etdirilməsinə böyük dəstək verə bilər.

12. İşğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycanın regional və beynəlxalq əməkdaşlığını daha da gücləndirməklə, ölkəmizin qeyri-neft sektoruna investisiya qoyuluşu imkanlarını daha

da artıracaq. Xüsusilə bu bölgədə kənd təsərrüfatının inkişafı Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynaya bilər.

13. Baltikyanı ölkələrlə Azərbaycan arasında iqtisadi əlaqələri genişləndirmək üçün, fikrimizcə, aşağıdakı konkret təklifləri vermək olar:

- yüngül, toxuculuq və yeyinti sənayesinin idxalı əvəz edən, yüksək keyfiyyətli məhsulların istehsalı, xam pambıq, yunun emalı, dəri məmulatlarının istehsalı üzrə birgə müəssisələrin yaradılması;
- qeyri-ənənəvi və alternativ enerji mənbələrinin yaradılması sahəsində, habelə yaşıl enerji hasilatına yatırıla bilən investisiya layihələrinin həyata keçirilməsində iştirak etmək;
- ölkələrarası xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi sahəsində səmərəli forma və metodları tətbiq etmək;
- Şimal-cənub beynəlxalq nəqliyyat layihəsi çərçivəsinə uyğunlaşa bilən Bakı-Tbilis-Qars dəmir yolu xəttinin intensivliyini daha da artırmaq məqsədi ilə yükdaşımaların həcmini və çeşidini artırmaq;

Beləliklə, yuxarıda göstərilən tövsiyə və təkliflərin həyata keçirilməsi Baltikyanı ölkələrlə Azərbaycan arasında xarici iqtisadi əlaqələrin dərinləşməsinə, istehsal müəssisələrinin dünya bazarında rəqabət qabiliyyətinin artırılmasına xarici risklərə tez və adekvat cavab vermək qabiliyyətinə töhfə verəcəkdir.

**Dissertasiya işinin mövzusu ilə bağlı aşağıdakı məqalə və tezislər dərc edilmişdir:**

1. Beynəlxalq iqtisadi əlaqələrin qorunmasında xarici kapitalın rolu. // – Bakı: Beynəlxalq elmi-praktiki konfransın materialları, 2019. – s. 479-482.

2. Xarici iqtisadi əlaqələrin mahiyyəti və inkişaf qanunauyğunluqları. // – Bakı: “Audit” jurnalı, №3, 2020. – s.101-108.

3. Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu. // – Bakı: Beynəlxlaq Elmi-Praktiki Konfrans materialları, 2020. – s. 426-428.

4. Azərbaycanın Baltikyanı ölkələrlə iqtisadi əlaqələrinin inkişafı. // – Bakı: “İpək Yolu” jurnalı, №1, 2021. – s. 99-105.

5. Kiçik açıq iqtisadiyyatlı ölkələrin xarici ticarət siyasətinin əsas xüsusiyyətləri. // – Bakı: “Audit” jurnalı, №4, 2021. – s.101-108.

6. The main features of the foreign trade of small open economies. // – Polşa, Opole: Modern problems of improving living standards in a globalized world: Opportunities and challenges, 2021. – s. 189-199

7. Azərbaycan və Baltikyanı ölkələr arasında iqtisadi əlaqələr. // – Bakı: Respublika Elmi Konfrans materialları, 2021, – s. 128-131.

8. Azərbaycanın postsovet ölkələri ilə ticarət əlaqələrinin əsas istiqamətləri. // – Bakı: “Kooperasiya” jurnalı, №1, 2022. – s. 50-55

9. Analysis of the current situation and development dynamics of trade relations between Azerbaijan and Baltic countries. // – Rusiya: Bulletin of Buryat State University. Economy and Management., Buryatiya Respublikası, 2022; 3. – s. 67□78

Dissertasiyanın müdafiəsi 29 may 2024-cü il tarixdə saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.04.2024

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 40730 işarə

Tiraj: 100